# Müasirliyin çağırışları və ictimai-humanitar elmlərin əsas inkişaf tendensiyaları

**Müasir informasiya dövlətində bilik və informasiya inkişafın aparıcı amilinə çevrilir. Ölkənin dünya birliyində təhlükəsizlik infrastrukturunun və geosiyasi statusunun biliklərdən, ən yeni bilik tutumlu və informasiya texnologiyaları sənayelərindən asılılığı getdikcə artır. Geosiyasətin yeni informasiya paradiqmasına görə, virtual məkanda informasiya üstünlüyü dövlətlər arasında məkan münasibətlərinin taleyini müəyyən edəcək ki, bu da informasiya məkanında simvolik mədəniyyət kapitalının strateji geosiyasi əhəmiyyətindən xəbər verir. Ölkələrin sosial, iqtisadi və siyasi inkişafında biliyin rolu artır. Resursların praktiki emalı prosesində biliklərin iştirakı sayəsində əmək deyil, bilik dəyər mənbəyinə çevrilir.**



İnformasiya ictimai resursun müstəqil növünə - sosial inkişafın istiqamətini, xarakterini və tempini təyin edən informasiya resursuna çevrilir ki, bu da "milli informasiya ehtiyatları" anlayışının yaranmasına səbəb olur.

Dövlətin və xalqın dünya birliyində statusu getdikcə daha çox elmi tədqiqatların və texnoloji biliklərin səviyyəsi, elm və texnikanın nailiyyətlərindən səmərəli istifadə etmək bacarığı ilə müəyyən edilir.

Demək olar ki, müasir dünyada elmin inkişaf səviyyəsi, eyni zamanda müəyyən cəmiyyətin inkişaf səviyyəsini də şərtləndirir. Hər hansı yeni aktual və mürəkkəb məsələnin həllini alimlərin fəal iştirakı olmadan təsəvvür etmək mümkün deyildir.

Dünya elmindəki tendensiya və rəqəmləri əks etdirən statistik məlumatlara nəzər saldıqda, elm sahəsinin yüksək templə inkişaf etdiyini, bu gün qlobal inkişaf industriyasına (sənayesinə) çevrildiyini görürük. Və bu tendensiyanın qaçılmaz və zəruri (eyni zamanda əbədi proses) olduğunu göstərən bir məqam da, elmin həyat səviyyəsini yüksəltməsidir.

Elmin qarşısında duran vəzifələrin mürəkkəbliyi onun büdcəsini artırır. Elm daha mürəkkəb və bahalı olur (iqtisadi səbəblərə və elmin qarşısında duran problemlərin miqyasına görə).

Son 20-25 ilin statistikası onu göstərir ki, elmə ayrılan maliyyənin həcmi böyüyür. Belə ki, bu siyahıda ilk yeri Çin tutur. O elmə xərcləri təxminən 20 dəfə (2000-2022) artırdığı halda, ABŞ və Avropa İttifaqı isə 3 dəfə (2000-2022) artırıb. Bu gün ən böyük oyunçular - ABŞ, Çin, Aİ-27 və Yaponiyanın payı elmə bütün qlobal xərclərin 90%-dən bir qədər çoxunu (90,5 %) təşkil edir.

Dövlət bütün aparıcı ölkələrdə elm sahəsində mərkəzi tənzimləyici və əsas investor olaraq qalır (baxmayaraq ki, onun payı azalır) (2010-2022). Elmin digər ən böyük oyunçusu biznesdir. Üstəlik, o, iki rol oynayır - elmin sponsoru və elmi layihələrin icraçısı kimi.

Bü gün ictimai-humanitar elmlərdə müasir tendensiyalar sosial və informasiya-texnoloji dəyişikliklər şəraitində və müasirliyin çağırışları kontekstində dəyərləndirilməlidir.

Müasir elmin sosial institut kimi inkişaf probleminin təhlili, onun öz daxili inkişaf qanunauyğunluqları çərçivəsində aparılmalıdır. Məsələn, təhsillə müqayisədə elmin məzmunu çox tez yenilənir.

Bu gün bütün dünyada elm sahəsində əsas götürülən istiqamətlər demək olar ki eynidir, universaldır. Müasir elmdə, xüsusilə də ictimai-humanitar sahədə, bir neçə əsas istiqaməti qeyd etmək olar ki, bunlar bu elm sahələrində sistemli dəyişikliklərə səbəb olur və onları institusional olaraq dəyişir: rəqəmsallaşma, fənlərarası tədqiqatlar, texnoloji suverenlik.

Bunlardan biri və birincisi, elmdə rəqəmsal texnologiyaların istifadəsidir (rəqəmsallaşma). Yəni, bu gün sosial elmlərdə elə məlumatları toplamaq metodları yaranıb ki, əvvəllər bunları təsəvvür etmək belə mümkün deyildir. Elmi idrak vasitələrinin dəyişməsi, elmi informasiyaya çıxışın radikal dəyişməsi tədqiqatçının imkanlarının genişlənməsinə gətirib çıxartdı. Məsələn, fəlsəfə, sosiologiya və politologiya üçün bu tendensiyanı qeyd edə bilərik. Bu gün böyük verilənlərlərdən istifadə edərək ictimai və humanitar sahələrdə yeni tədqiqat formatları tətbiq edilir. Eyni zamanda bu tendensiya fənlərarası tədqiqatları nəinki zəruri, demək olar ki, qaçılmaz edir.

Bu istiqamət daxilində həmçinin bu məlumatların təhlilinin sürəti və imkanları çərçivəsində "zəif" süni intellektdən və neyroşəbəkələrdən istifadəni də qeyd etmək olar. Bu məqam elmi idrak prosesini gələcəkdə də müşayiət edəcək.

Rəqəmsal texnologiyalardan məlumatların toplanmasından tutmuş elmi layihələrin idarə edilməsinə və maliyyələşdirilməsinə qədər tədqiqat prosesinin bütün mərhələlərində istifadə olunur.

İkinci tendensiya fənlərarası tədqiqatlardır. Bu gün hansısa bir elm sahəsində aparılan tədqiqat nəinki aktual deyil, eyni zamanda onun bir elm sahəsinin çərçivəsindən çıxmayaraq aparılmasının mümkünlüyü haqqında sual doğurur. Bu tendensiya özü ilə bərabər inteqrativ metodologiyanın, yəni müxtəlif sahələrin metodologiyalarının eyni zamanda istifadəsinə də gətirib çıxartdı. İnteqrativ tendensiya elmi inkişafın əsas qanunauyğunluğuna çevrilib.

Belə bir fikir irəli sürülür ki, gələcəkdə fənlərarası elmdən başqa elm olmayacaq. Bunun səbəbi ilk növbədə bütün dünyanın "böyük çağırışlara" cavab vermək zərurətindən irəli gəlir.

Üçüncü tendensiya - texnoloji suverenlikdir. Siyasətdə yeni vurğular müşahidə olunur. Geosiyasi turbulentlik, texnologiya və istedadlar uğrunda kəskin rəqabət diqqəti texnoloji suverenliyə yönəldir. Texnoloji suverenlikdə vurğu ən geniş mənada başa düşülən milli təhlükəsizliyə edilir. Bu kontekstdə müasir siyasi idarəetmənin ən mühüm vəzifəsi kimi informasiya təhlükəsizliyinin təmin edilməsi xüsusi aktuallıq kəsb edir. Xaricdən texnologiyalara və elmi tədqiqatlara deyil, öz tədqiqatlarına yönəlmə və əsaslanma meyli getdikcə daha çox güclənməkdədir.

Son illərdə Almaniyadan başlayaraq demək olar ki, bütün aparıcı elm mərkəzləri (ölkələr) onu prioritet olaraq öz elmi inkişaf strategiyalarında elan edibler. Bir neçə il əvvəl onlar ilk dəfə sözün geniş mənasında başa düşülən milli təhlükəsizliyə vurğu ilə texnoloji suverenliyə nail olmaq strategiyasını dərc etdilər.

İctimai-humanitar elmlərdə digər tendensiyalar da müşahidə olunur.

Elmin təşkilinin yeni formaları, o cümlədən yeni səriştələr tələb edən "open science" (açıq elm) yaranmışdır. Tədqiqat prosesinin bütün mərhələlərində alimlərin məhsuldarlığına tələblər artır.

Vacib tendensiyalardan biri elmi nəticələrin təqdim edilməsi və xarici dünya ilə açıq ünsiyyət üçün daha başa düşülən tədqiqat formatlarına müraciətdir. Gələcəkdə açıq elmi nəticələr və onların yayılması üçün sürətli formatlar getdikcə daha çox tələb olunacaq. İstedad üçün rəqabət (Competition for the best brains) getdikcə güclənir.

Elmdə şəbəkələşmə tendensiyası (elmin şəbəkələşməsi) müşahidə olunur. Tədqiqatçılar arasında özünütəşkilatlanmanın yeni formaları populyarlaşır. Rəqəmsal texnologiyalar və sosial şəbəkələr tərəfindən dəstəklənən virtual icmaların ortaya çıxması xüsusilə pandemiyanın təsiri ilə inkişaf etməyə başlamışdır.

Beləliklə, bütün dünyada müasir cəmiyyətin inkişafında elmin rolu yenidən qiymətləndirilir. Hal-hazırda ayrı-ayrı dövlətlərin rəqabət bacarığını təyin edən ən vacib amillərdən biri, mövcud intellektual ehtiyatların səmərəli istifadə edilməsidir. Gələcəkdə biliyin ölkələrin dünyadakı yerini daha çox müəyyən edəcəyi şübhə doğurmur.

**Roida RZAYEVA**
**AMEA Akad. Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutunun şöbə müdiri, fəlsəfə elmləri doktoru, professor**